**Hörmətli namizəd!**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin ixtisas komissiyası notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq üçün şəhadətnamə almaq məqsədilə müsabiqədə iştirak edən şəxslərə uğurlar diləyir.**

Məqsədimiz Sizə imtahan və müsahibədə hüquqi biliklərinizi nümayiş etdirmək üçün lazımi əlverişli şərait yaratmaqdan, şəffaflığı, aşkarlığı və obyektivliyi təmin etməkdən ibarətdir.

**Bununla bağlı "Yaddaş kitabçası" Sizə təqdim edilir. İmtahanın və müsahibənin keçirilməsi qaydalarına əməl etməyiniz xahiş olunur.**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin ixtisas komissiyası**

## <u>Namizədin mütləq bilməli olduğu məsələlər</u>

## 1. Namizədin imtahanqabağı vəzifələri

1.1. Siz test imtahanının başlanmasına azı 1 saat qalmış imtahanın keçiriləcəyi binanın qarşısına gəlməli (əvvəlcə məlumat veriləcəkdir), şəxsiyyət vəsiqənizi özünüzlə gətirməlisiniz:

**Diqqət!**

Şəxsiyyət vəsiqəniz olmadıqda imtahana buraxılmayacaqsınız.

1.2. Namizəd binanın girişində şəxsiyyət vəsiqəsini təqdim etməklə qeydiyyatdan keçir və imtahan zalında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilmiş qaydada yerləşdirilir.

## 2. Test imtahanı

2.1. Namizəd imtahan keçirilən zalda ona təklif olunan sırada və yerdə oturduqdan sonra nəzarətçinin izahatını diqqətlə dinləməlidir. Aydın olmayan məsələlər barəsində nəzarətçiyə müraciət etmək olar.

2.2. İzahat işi qurtardıqdan sonra namizəd suallara kompüterdə yerləşdirilmiş xüsusi proqram təminatı vasitəsi ilə cavab verir. İmtahanın başlanması vaxtı sualların monitorda göründüyü andan hesablanır.

2.3. İmtahan 3 (üç) saat müddətində fasilə verilmədən keçirilir. İmtahanın başa çatacağı vaxt elan edilir.

2.4. Namizəd geri qayıtmamaq şərti ilə istədiyi vaxt imtahan zalını tərk edə bilər.

**Diqqət!**

Suallara verilən səhv cavablar digər suallar üzrə düzgün cavablara mənfi təsir etmir.

İmtahanın qurtardığı elan olunduqda Siz imtahan keçirilən zalı tərk etməlisiniz.

2.5. Namizəd istənilən səbəbdən imtahandan vaxtından əvvəl çıxdıqda, nəzarətçinin müşayiəti ilə zalı tərk edir.

2.6. Texniki səbəblərdən imtahanın davam etdirilməsi mümkün olmadıqda ixtisas komissiyası tərəfindən müəyyən edilmiş vaxtda imtahanın yenidən keçirilməsi barədə namizədə məlumat verilir.

2.7. Namizədin suallara verdiyi cavabların nəticəsi həmin vaxt onun istifadəsində olan monitorda görünür **və bu barədə ona yerindəcə müvafiq arayış verilir**.

## 3. Müsahibənin keçirilməsi

3.1. Notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq üçün zəruri keyfiyyətlərə malik olmasını müəyyən etmək məqsədi ilə test imtahanından keçid balı toplamış şəxslərlə müsahibə aparılır.

3.2. Müsahibədə hüquq sahəsinə aid, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına və digər normativ hüquqi aktlarına dair, habelə namizədlərin ümumi dünyagörüşünü müəyyən edən suallar verilir.

3.3. Müsahibə ixtisas komissiyası tərəfindən hər bir namizədlə fərdi qaydada söhbət formasında 30 (otuz) dəqiqəyədək aparılır. Müsahibə zamanı hər namizədə 5 sual verilir.

3.4. Müsahibənin keçirildiyi tarix və yer ixtisas komissiyası tərəfindən müəyyən edilir və bu barədə namizədlərə əvvəlcədən məlumat verilir.

3.5. Namizəd müsahibəyə gələrkən şəxsiyyət vəsiqəsini gətirməlidir.

**4. Namizədə qadağandır:**

4.1. imtahan keçirilən zala cib telefonu, peycer, kalkulyator, konspekt və ədəbiyyat, məlumat və qeydiyyat kitabçası, çanta, portfel və digər yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək;

4.2. hər hansı səbəbdən imtahan zalını tərk edib, yenidən geri qayıtmaq;

4.3. intizamsızlıq göstərmək;

4.4. zalda gəzişmək, oturduğu yeri dəyişmək və ya kiminsə köməyindən istifadə etmək, kiməsə kömək etmək və bu kimi hallara yol verməklə imtahanın gedişinə mane olmaq;

4.5. test imtahanı zamanı başqasının monitoruna baxmaq və ya öz monitoruna başqasının baxması üçün şərait yaratmaq.

**Diqqət!**

Belə hallar aşkar edildikdə namizəd imtahandan kənarlaşdırılır və imtahanın nəticələri ləğv edilir.

4.6. «Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə şəhadətnamə almaq və xüsusi notariusun köməkçisi təyin olunmaq üçün imtahanın və müsahibələrin keçirilməsi Qaydası»nda müəyyən edilmiş şərtlərin hər hansı formada pozulması və saxtakarlığa yol verilməsi (öz yerinə imtahana başqasını göndərmək, saxta sənədlər təqdim etmək və s. hərəkətlər) namizədin imtahandan kənarlaşdırılmasına, barəsində müvafiq tədbirlərin görülməsinə və imtahanın nəticələrinin ləğv edilməsinə səbəb olur.

4.7. Əgər Siz imtahan zamanı qaydaların pozulması halları ilə rastlaşsanız mütləq nəzarətçiyə müraciət edin. Nəzarətçi müvafiq tədbir görmədikdə, imtahan rəhbəri və ya ixtisas komissiyasının nümayəndəsinin zala gəlməsini tələb edin.

**Sizə müvəffəqiyyətlər arzulayırıq!**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin**
**ixtisas komissiyası**

**Hörmətli namizəd!**

Notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq məqsədilə şəhadətnamə almaq istəyən namizədlər üçün keçiriləcək test imtahanında müvəffəqiyyət qazanmaq üçün Siz Azərbaycan Respublikasının Konstitusiyasını, Mülki, Ailə, Torpaq məcəllələrini, «Normativ hüquqi aktlar haqqında» Konstitusiya Qanununu, «Notariat haqqında», «Ədliyyə orqanlarında qulluq keçmə haqqında», «İpoteka haqqında», «İcra haqqında», «Daşınmaz əmlakın dövlət reyestri haqqında», «Daşınar əşyaların yüklülüyü haqqında», «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında», «Pasportlar haqqında», «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında», «Vətəndaşların müraciətləri haqqında», «Kredit büroları haqqında», «Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında», «Hədəfli maliyyə sanksiyaları haqqında» qanunları və «Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə»ni mükəmməl bilməlisiniz.

Bundan əlavə, test imtahanına hazırlaşarkən, həmçinin Siz

- Mülki Prosessual, Cinayət Prosessual, İnzibati Prosessual, Əmək, Mənzil, Cinayət, Vergi, İnzibati Xətalar məcəllələrində, habelə «İnzibati icraat haqqında», «Dövlət rüsumu haqqında», «Banklar haqqında», «Beynəlxalq xüsusi hüquq haqqında», «İcra məmurları haqqında», «Vəkillər və vəkillik fəaliyyəti haqqında», «Korrupsiyaya qarşı mübarizə haqqında» qanunlarda notariat fəaliyyəti üzrə aidiyyəti hissələrə xüsusi diqqət yetirməlisiniz.

## Test imtahanının sual nümunələri

**Mülkiyyət hüququ mülkiyyətçinin hansı hüquqlarından ibarətdir?**

A) sahiblik və sərəncam;
B) sahiblik və istifadə;
C) sahiblik, istifadə və sərəncam;
D) istifadə və sərəncam.

**Nikahın dövlət qeydiyyatına qədər bağlanmış nikah müqaviləsi nə vaxtdan qüvvəyə minir?**

A) tərəflərin müqaviləni imzaladığı gündən;
B) nikahın bağlanmasının dövlət qeydiyyatına alındığı gündən;
C) müqavilədə göstərildiyi gündən;
D) müqavilənin notariat qaydasında təsdiq edildiyi gündən.

**Aşağıdakılardan hansılar miras qoyanın birinci növbə vərəsələridirlər?**

A) yalnız ölənin uşaqları;
B) ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər, (övladlığa götürənlər);
C) yalnız ölənin uşaqları, arvad (ər), valideynlər;
D) ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər, (övladlığa götürənlər), bacılar, qardaşlar.

**Azərbaycan Respublikası**
**ədliyyə nazirinin**
**2005-ci il 23 noyabr tarixli**
**22-T nömrəli əmri ilə**
**təsdiq edilmişdir**

# Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə şəhadətnamə almaq və xüsusi notariusun köməkçisi təyin olunmaq üçün imtahanın və müsahibələrin keçirilməsi

# QAYDASI

(çıxarış)

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun hazırlanmışdır və notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq məqsədi ilə şəhadətnamənin (bundan sonra – şəhadətnamə) verilməsi üçün imtahanın və müsahibələrin keçirilməsi, şəhadətnamənin və xüsusi notariusun qeydiyyat vəsiqəsinin (bundan sonra – vəsiqə) verilməsi və xüsusi notariusun köməkçisinin təyin olunması prosedurlarını tənzimləyir.

1.2. Ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə 3 ildən az olmayaraq iş stajına, mənəvi keyfiyyətlərə və peşə biliklərinə malik Azərbaycan Respublikasının vətəndaşı notarius ola bilər.

1.3. "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən ikili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxs, din xadimi, vəzifəsinin icrası ilə bağlı əvvəllər qanunvericiliyin tələblərini pozduğuna görə işdən azad edilmiş, qanunla müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab olunan, əvvəllər cinayət törətmiş və buna görə məhkum olunmuş, barəsində notariat fəaliyyəti ilə məşğul olmasının məhdudlaşdırılması və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı çıxarılmış, habelə bəraətverici əsaslar olmadan cinayətin törədilməsi üzrə cinayət işinin xitam olunması haqqında qanuni qüvvəyə minmiş istintaq orqanı və ya məhkəmənin qərarı olan, tibbi rəyə əsasən fiziki və əqli pozuntularına görə notarius işləməyə qadir olmayan, 65 yaşına çatmış şəxs notarius ola bilməz.

1.4. Dövlət notariusuna "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məhdudiyyətlər də tətbiq edilir.

1.5. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Ədliyyə nazirliklərinin (bundan sonra - Nazirlik) notariat fəaliyyətinə nəzarəti bilavasitə həyata keçirən qurumunda və dövlət notariat ofislərində ali hüquq təhsili tələb olunan inzibati vəzifələrdə və ya xüsusi notariusun köməkçisi vəzifəsində 3 ildən az olmayaraq işləyən və "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə cavab verən şəxslər, habelə hakimlər şəhadətnamə almaq üçün yalnız notariat fəaliyyəti üzrə peşə hazırlığına dair müsahibədən keçməlidirlər.

1.6. Naxçıvan Muxtar Respublikası ərazisində şəhadətnamənin verilməsi üçün imtahanın və müsahibələrin keçirilməsi, şəhadətnamənin və vəsiqənin verilməsi və xüsusi notariusun köməkçisinin təyin olunması bu Qaydaya uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir.

## 2. İxtisas komissiyası

2.1. Notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq üçün şəhadətnamə almaq istəyən və xüsusi notariusun köməkçisi olmaq istəyən şəxsin (bundan sonra - şəxs) bilik səviyyəsinin imtahan və müsahibə vasitəsi ilə yoxlanılması, notariat fəaliyyəti üzrə peşə

hazırlığına dair müsahibənin keçirilməsi, şəhadətnamənin və təyinatlara dair təkliflərin verilməsi və ya şəhadətnamənin verilməsindən imtina edilməsi ilə bağlı məsələlərin həll edilməsi üçün Nazirlik tərəfindən 7 nəfərdən ibarət tərkibdə ixtisas komissiyası yaradılır.

2.2. İxtisas komissiyası daxil olan sənədlərə baxır, namizədlərin siyahısına daxil edilmiş şəxslərdən imtahan qəbul edir, müsahibə keçirir, icbari təlimin nəticələrini qiymətləndirir, peşə hazırlığının yoxlanılması üzrə müsahibə keçirir və uğur qazanmış namizədlərə şəhadətnamənin və onların təyinatlarına dair təkliflərin verilməsi və ya şəhadətnamənin verilməsindən imtina edilməsi barədə qərar qəbul edir.

2.3. İxtisas komissiyası üzvlərinin səlahiyyət müddəti beş ildir.

İxtisas komissiyasının səlahiyyət müddəti bitmiş üzvləri yenidən bu komissiyanın tərkibinə daxil edilə bilərlər.

2.4. İxtisas komissiyasının səlahiyyətlərinə aid bütün məsələlərin həllində komissiya üzvlərinin hüquqları bərabərdir.

2.5. İxtisas komissiyasının sədri, onun müavini və katibi komissiya üzvləri tərəfindən onların arasından komissiyanın birinci iclasında seçilir.

Komissiyanın iclaslarının keçirilməsi vaxtını komissiyanın sədri müəyyən edir.

2.6. İxtisas komissiyası 15 gün ərzində daxil olmuş sənədləri nəzərdən keçirir, namizədlərin siyahısını tərtib edir, bundan sonra imtahanın və müsahibənin keçirilməsi üçün zəruri məlumatları özündə əks etdirən "Yaddaş kitabçası"nın hər bir namizədə verilməsini təmin edir.

2.7. İxtisas komissiyası imtahanın suallar toplusunu və düzgün cavabların konfidensial siyahısını təsdiq edir.

2.8. İxtisas komissiyası üzvlərinin aşağıdakı hüquqları vardır:

2.8.1. komissiyanın səlahiyyətlərinə aid məsələlərin həllində iştirak etmək və təkliflər vermək;

2.8.2. komissiyanın iclaslarında iştirak etmək, iclasın aparılmasına dair fikirlərini bildirmək, suallar vermək;

2.8.3. komissiyanın qərar, protokol və digər sənədləri ilə tanış olmaq;

2.8.4. qəbul edilməsi təklif olunan qərara dair fikir söyləmək;

2.8.5. qəbul edilməsi təklif olunan qərarın lehinə və ya əleyhinə səs vermək, yaxud bitərəf qalmaq, qərarla razılaşmadıqda xüsusi rəy vermək;

2.8.6. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

2.9. İxtisas komissiyası üzvlərinin vəzifələri aşağıdakılardır:

2.9.1. öz fəaliyyətlərində "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarını və bu Qaydanı rəhbər tutmaq;

2.9.2. komissiyanın iclaslarını üzrsüz səbəbdən buraxmamaq;

2.9.3. komissiyanın iclaslarında baxılan məsələlər üzrə səsvermədə iştirak etmək;

2.9.4. komissiya üzvünün adına və qərəzsizliyinə xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməmək;

2.9.5. komissiyanın iclaslarında baxılan məsələlər üzrə konfidensiallığa əməl etmək.

2.10. İxtisas komissiyası üzvlərinin səlahiyyətlərinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

2.10.1. öz arzusu ilə ixtisas komissiyası üzvlüyündən çıxmaq barədə yazılı ərizə verdikdə;

2.10.2. barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmə qərarı olduqda, habelə cinayət işinə bəraətverici əsaslar olmadan xitam verildikdə;

2.10.3. ədliyyə orqanlarında qulluq keçməsinə və ya xüsusi notarius kimi fəaliyyətinə xitam verildikdə;

2.10.4. üzrsüz səbəbdən ardıcıl üç dəfə və ya il ərzində altı dəfə komissiyanın iclaslarında iştirak etmədikdə;

2.10.5. bu Qaydanın 2.9-cu bəndində göstərilən vəzifələri icra etmədikdə;

2.10.6. əmək qabiliyyətinin fasiləsiz olaraq altı aydan çox müddətə tam itirilməsi ilə əlaqədar funksiyalarını yerinə yetirə bilmədikdə;

2.10.7. fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti olması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi olduqda;

2.10.8. vəfat etdikdə.

2.11. Səlahiyyətlərinə vaxtından əvvəl xitam verilmiş ixtisas komissiyası üzvünün yerinə yeni üzv onun səlahiyyət müddətinin qalmış hissəsinə bu Qaydanın 2.1-ci bəndinə uyğun olaraq təyin edilir.

2.12. İxtisas komissiyasının işi aşağıdakı qaydada təşkil olunur:

2.12.1. ixtisas komissiyasının sədri komissiyanın işini təşkil edir, onun iclaslarına sədrlik edir. İxtisas komissiyasının sədri olmadıqda sədrin səlahiyyətlərini sədr müavini, o olmadıqda isə komissiya üzvlərindən biri həyata keçirir;

2.12.2. ixtisas komissiyasının katibi komissiyanın iclaslarının protokolunu tərtib edir. Komissiyanın katibi olmadıqda iclasların protokolunu komissiya üzvlərindən biri tərtib edir;

2.12.3. ixtisas komissiyasının səlahiyyətinə aid edilmiş məsələlərə komissiyanın iclaslarında baxılır;

2.12.4. ixtisas komissiyasının iclasının tarixi, yeri və müzakirəyə çıxarılan məsələlər barədə komissiyanın katibi tərəfindən komissiya üzvlərinə qabaqcadan məlumat verilməlidir;

2.12.5. ixtisas komissiyasının iclası onun üzvlərinin azı beşi iştirak etdikdə səlahiyyətlidir;

2.12.6. ixtisas komissiyası müzakirə olunan məsələlər üzrə qərarlar qəbul edir. Qəbul olunmuş qərarlar iclasda iştirak etmiş komissiya üzvləri, iclas protokolları isə komissiyanın sədri və katibi, sədr və ya katib iclasda iştirak etmədikdə onları əvəz etmiş komissiya üzvləri tərəfindən imzalanır;

2.12.7. ixtisas komissiyasının qərarları açıq səsvermə və səs çoxluğu ilə qəbul olunur. Səslər bərabər olduqda komissiya sədrinin səsi həlledicidir. Komissiya üzvünün xüsusi rəyi olduqda, rəy qərara əlavə olunur.

2.13. Namizədin müraciəti əsasında ixtisas komissiyası tərəfindən qəbul edilmiş qərarın surəti üç gün müddətində ona verilir.

2.14. Çıxarılmışdır.

2.15. İxtisas komissiyası imtahanın sual kitabçasının, düzgün cavabların siyahısının, cavab kartlarının, digər aidiyyəti olan sənədlərin imtahan keçirildiyi gündən, bal cədvəllərinin isə müsahibələrin keçirildiyi gündən 5 il müddətində saxlanılmasını təmin edir.

Bu müddət başa çatdıqdan sonra ixtisas komissiyası sənədləri Nazirliyə təhvil verir və müvafiq sənədlər notariusun şəxsi işinə əlavə olunur.

## 4. İmtahanın keçirilməsi

4.1. İmtahan namizədin seçdiyi notarius vakansiyası üzrə əsasən kompüterdən istifadə edilməklə test üsulu ilə keçirilir. Test imtahanı kompüterdən istifadə edilmədən yazılı formada da keçirilə bilər.

İmtahanın keçiriləcəyi yeri və vaxtı ixtisas komissiyası müəyyən edir və bu barədə elan verilir.

İxtisas komissiyası tərəfindən imtahanın təşkilinə və keçirilməsinə məsul olan heyət, onun tərkibi və vəzifələri müəyyən edilir. İmtahanın keçirilməsini təmin etmək məqsədi ilə imtahan rəhbəri və imtahan nəzarətçiləri təyin olunurlar. İmtahan nəzarətçilərinin sayı auditoriya üzrə 2 nəfərdən az olmamalıdır.

4.2. İmtahanın keçirilməsinə digər müvafiq dövlət qurumları cəlb edilə bilər.

Beynəlxalq, hökumət və qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin nümayəndələri imtahanı müşahidə etməyə dəvət oluna bilərlər.

4.3. Namizədlərin imtahan zalında yerləşdirilməsi prosesi başa çatdıqdan sonra onlar imtahan heyəti tərəfindən imtahanın keçirilməsi qaydaları, namizədlərin hüquq və vəzifələri, habelə müəyyən edilmiş qadağalar haqqında bir daha məlumatlandırılır.

Namizəd imtahanın keçirilmə qaydalarını pozduqda, yəni saxta sənədlər təqdim etdikdə, köçürməyə yol verdikdə, imtahana rabitə vasitəsi gətirdikdə, imtahana öz yerinə başqasını göndərdikdə, yaxud imtahanın keçirilmə qaydalarına zidd digər hərəkətlərə yol verdikdə bu barədə akt tərtib edilir və həmin namizəd imtahandan kənarlaşdırılır. Müvafiq pozuntular imtahan başa çatdıqdan sonra aşkar edilərsə, pozuntuya yol vermiş namizədin imtahan nəticələri ixtisas komissiyası tərəfindən ləğv edilir.

4.4. Konfidensiallıq təmin edilməklə imtahan suallarını və onların cavablarını ixtisas komissiyası hazırlayır. Bu işə mütəxəssislər cəlb edilə bilər. İxtisas komissiyası tərəfindən təsdiq olunmuş suallar toplusunda sualların sayı imtahanda istifadə ediləcək sualların sayından azı 5 dəfə çox olmalıdır.

4.5. İmtahanda namizədlərə 100 sual verilir. Bunlardan 80 sual hüququn müxtəlif sahələrinə və notariat fəaliyyətinə dair qanunvericiliyi əhatə edir. 20 sual isə namizədin məntiqi nəticələr çıxarmaq qabiliyyətini, ümumi bilik səviyyəsini və dünyagörüşünü müəyyən etmək üçün mövcud suallar toplusundan əlavə seçilir.

4.6. İmtahan suallarının hazırlanması imtahana azı 10 gün qalmış başa çatdırılmalıdır. Suallar toplusuna və düzgün cavabların siyahısına ixtisas komissiyasının qapalı iclasında baxılıb təsdiq edildikdən sonra zərflərə qoyularaq möhürlənməklə xüsusi yerdə saxlanılır.

4.7. İmtahan 3 (üç) saat müddətində fasilə verilmədən keçirilir. Namizəd geri qayıtmamaq şərti ilə istədiyi vaxt imtahan zalını tərk edə bilər.

4.8. İmtahanın qanunvericilik sahəsinə aid olan hər bir sualının düzgün cavabı 1 balla qiymətləndirilir (cəmi 80 mümkün bal).

İmtahanda namizədin məntiqi nəticələr çıxarmaq qabiliyyətini, ümumi bilik səviyyəsini və dünyagörüşünü müəyyən edən 20 sualın hər birinin düzgün cavabı 0,5 balla qiymətləndirilir (cəmi 10 mümkün bal).

Səhv cavablar və ya sualın cavabsız qoyulması “ 0” bala bərabər tutulur və düzgün cavablara təsir göstərmir.

4.9. İmtahanın yekunlarına görə 55 və ya daha çox bal toplamış namizəd müsahibəyə buraxılır.

4.10. İmtahanın nəticələrindən narazı qalan namizəd bu barədə nəticənin ona məlum olduğu vaxtdan 5 gün müddətində ixtisas komissiyasına müraciət edə bilər. İxtisas komissiyası aidiyyəti mütəxəssislərlə birlikdə namizədin şikayətini araşdırır və ona müvafiq izah verir.

4.11. Araşdırma nəticəsində namizədin keçid bal topladığı müəyyən edilərsə, ixtisas komissiyası onun müsahibəyə buraxılması məsələsini həll edir.

4.12. İmtahan kompüterdən istifadə edilməklə aşağıdakı qaydada keçirilir:

4.12.1. Namizəd imtahanın başlanmasına azı 1 saat qalmış imtahan verəcəyi binanın qarşısına gəlməlidir. O, şəxsiyyət vəsiqəsini təqdim etməklə qeydiyyatdan keçir və imtahan zalında ixtisas komissiyası tərəfindən müəyyən edilmiş qaydada yerləşdirilir.

4.12.2. İmtahandan əvvəl, yaxud imtahan keçirilən gün ixtisas komissiyasının müəyyən etdiyi mütəxəssis (mütəxəssislər) tərəfindən imtahanda istifadə edilməsi üçün suallar toplusundan xüsusi proqram vasitəsi ilə bu Qaydanın 4.5-ci bəndində nəzərdə tutulmuş suallar seçilir.

4.12.3. Namizəd suallara kompüterdə yerləşdirilmiş xüsusi proqram təminatı vasitəsi ilə cavab verir. İmtahanın başlanması vaxtı sualların monitorda göründüyü andan hesablanır.

4.12.4. İmtahan zamanı kompüterdə baş verən texniki qüsur və nasazlıqlara görə bu Qaydanın 4.12.2-ci bəndində göstərilən mütəxəssis (mütəxəssislər) bilavasitə məsuliyyət daşıyır.

4.12.5. Texniki səbəblərdən imtahanın davam etdirilməsi mümkün olmadıqda ixtisas komissiyası tərəfindən müəyyən edilmiş vaxtda imtahanın yenidən keçirilməsi barədə namizədə məlumat verilir.

4.12.6. Namizədin suallara verdiyi cavabların nəticəsi həmin vaxt onun istifadəsində olan monitorda görünür.

4.12.7. İmtahanın nəticələri barədə məlumat imtahan başa çatdıqdan sonra 1 saat ərzində bu Qaydanın 4.12.2-ci bəndində göstərilən mütəxəssis (mütəxəssislər) tərəfindən ixtisas komissiyasına rəsmi qaydada təqdim olunur.

## 5. Müsahibənin keçirilməsi

5.1. Müsahibənin keçirildiyi tarix ixtisas komissiyası tərəfindən müəyyən edilir və bu barədə elan verilir.

5.2. Müsahibədə hüquq sahəsinə aid, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına və digər normativ hüquqi aktlarına dair, habelə namizədlərin ümumi dünyagörüşünü müəyyən edən suallar verilir.

5.3. Müsahibə hər bir namizədlə fərdi qaydada söhbət formasında 30 dəqiqəyədək aparılır. Müsahibə zamanı hər namizədə 5 sual verilir.

5.4. Namizədə verilən suallar bal cədvəlinə (5 nömrəli əlavə) yazılır. Bal cədvəlində müsahibənin sonunda komissiya üzvləri tərəfindən imza edilir.

5.5. Namizədin verdiyi hər cavab ixtisas komissiyasının hər bir üzvü tərəfindən 0, 1, 2, 3, 4 və 5 ballardan biri ilə qiymətləndirilir və sonra Komissiya üzvlərinin verdiyi qiymətlər toplanaraq müsahibədə iştirak edən Komissiya üzvlərinin sayına bölünür.

Müsahibənin nəticəsi üzrə ən çox 25 bal toplamaq mümkündür.

5.6. Müsahibədən 15 (on beş) və daha çox bal toplamış namizədlərin sayı elan edilmiş notarius vakansiyalarının sayından çox olduqda, ərizəsində göstərilən notarius vakansiyası üzrə ən yüksək bal toplamış namizəd icbari təlimə buraxılır. Digər namizədlər sırasından isə ardıcıllıqla daha çox keçid balı toplayanlara ərizələrində qeyd etdikləri təqdirdə boş qalan başqa notarius vakansiyası üzrə icbari təlimə göndərilməsi təklif olunur.

Təklifi qəbul etməyənlər, habelə qalan digər namizədlər müsahibədən keçməmiş sayılırlar.

5.7. Toplanmış balların miqdarı eyni olduqda, ardıcıl olaraq hüquq elmi üzrə dərəcəsi olanlara və hüquq fəaliyyəti sahəsində daha təcrübəlilərə üstünlük verilir.

5.8. Müsahibə başa çatdıqdan sonra ixtisas komissiyası icbari təlimə buraxılan namizədlərin siyahısını tərtib edir və müvafiq təqdimatla Nazirliyə müraciət edir.

## 7. Şəhadətnamənin verilməsi

7.1. Namizədlərin bilik səviyyəsi imtahan və müsahibə vasitəsilə yoxlanıldıqdan sonra onlar Ədliyyə Akademiyasında icbari təlimə cəlb olunurlar. İcbari təlim dövründə namizədlərə notariat sahəsinə aid nəzəri biliklər tədris olunur. Bundan sonra onlar notariat fəaliyyəti üzrə təcrübə keçirlər. Nəzəri biliklərin tədris olunması və təcrübə müddətləri Ədliyyə Nazirliyi tərəfindən müəyyən edilir.

İcbari təlimin yekunları üzrə bu Qaydanın 6.1-6.7-ci bəndləri ilə müəyyən olunmuş qaydada ixtisas komissiyası tərəfindən Ədliyyə Akademiyasının mütəxəssislərinin iştirakı

ilə qiymətləndirmə aparılır. Qiymətləndirmənin nəticəsindən asılı olaraq ixtisas komissiyası şəhadətnamənin və təyinatlara dair təkliflərin verilməsi və ya şəhadətnamənin verilməsindən imtina edilməsi barədə qərar qəbul edir.

İxtisas komissiyasının qərarı ilə razılaşmayan namizədlər Azərbaycan Respublikasının ədliyyə nazirinə şikayət edə bilərlər. Şikayətə baxılmasının nəticəsi barədə namizədə yazılı cavab verilir. Şikayətə baxılmasının nəticəsi ilə razılaşmayan namizəd məhkəməyə müraciət edə bilər.

7.2. Namizəd tərəfindən dövlət rüsumunun ödənilməsi barədə sənəd təqdim edildikdən sonra Nazirlik 10 gün ərzində ona beş il müddətinə notariat fəaliyyəti ilə məşğul olmaq üçün şəhadətnamə verir. Şəhadətnamə Nazirliyin notariat fəaliyyətinin təşkilinə məsul olan qurumunda müvafiq kitabda qeydiyyata alınır (6 nömrəli əlavə).

## 8. Vəsiqənin verilməsi

8.1. Notariat fəaliyyətinin həyata keçirilməsi üçün şəhadətnamə almış və icbari sığorta müqaviləsini bağlamış şəxs Nazirlik tərəfindən xüsusi notarius təyin edilir və ona qeydiyyat vəsiqəsi (8 nömrəli əlavə) verilir. Xüsusi qaydada fəaliyyət göstərmək istəyən notarius fəaliyyət göstərəcəyi yeri razılaşdırmaq və vəsiqə almaq üçün Nazirliyə ərizə (9 nömrəli əlavə) ilə müraciət edir (ərizə Nazirliyin notariat fəaliyyətinin təşkilinə məsul olan qurumunda müvafiq kitabda qeydiyyata alınır). Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

şəhadətnamənin surəti;

notariusun məsuliyyətinin sığortalanmasına dair müqavilənin surəti və ya sığorta girovunun ödənilməsi haqqında sənəd;

fəaliyyət göstərmək istədiyi yerin ona məxsus olmasını və ya onun tərəfindən icarəyə götürülməsini təsdiq edən sənəd.

8.3. Ərizə təqdim olunduğu gündən sonra 10 gün ərzində baxılaraq notariusa şəhadətnaməsinin qüvvədə olduğu müddətə vəsiqə verilir.

8.6. Şəhadətnaməsi ləğv edilmiş notariusun notariat fəaliyyətinə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən xitam verilir. Fəaliyyətinə xitam verilmiş xüsusi notariusun qeydiyyat vəsiqəsi ləğv edilir.